# ÜZ-ÜZƏ

## Povest



**ÇİNGİZ AYTMATOV**

*(Əvvəli ötən sayımızda)*

- Səidə cene, İsmayıldan yenə məktub yoxdur, bizə də gəlməyib, -Asantay Səidəyə qısılaraq günahkarcasına cılız qollarından çuval kimi sallanan jaketini düzəltməyə çalışdı. - Qurban ake dedi ki, bazar gününə məktub gətirəcək. - O yuxuda belə görüb!

Başına geyindiyi dovşan dərisi papağının altından ümidli baxışlarla Səidəyə baxırdı. Baxışları çox şeyi, hətta mümkün olmayanları belə vəd edirdi. Kaş ki, onun bu məsum sözlərini eşitmək Səidəyə necə ağır olduğunu bilsəydi! Uzaqlardan belində gətirdiyi şələ bu dəqiqələrdə belində daş kimi ağırlaşmış olurdu. Qapıya çatmağa beş-altı addım qalırdı. Yıxılmamaq üçün Səidə bağçanın divarına söykənmək məcburiyyətində qalırdı. Belindən yükü atdıqdan sonra bir müddət qollarını sallayaraq dayanır, üzünə yapışan saçlarını düzəltməyə belə gücü çatmazdı. "Ay Allah, bu uşaqların atalarından bir xəbər gəlsin!" - o fikirləşirdi. Ona nədənsə elə gəlirdi ki, qonşusu Totoy ərindən məktub alarsa, o da sakitləşəcək. Bəzən gecələr Astanayın sözlərini xatırlayır və qorxurdu. Uzun müddət idi ki, Qurbandan İsmayıldan məktub gəlib-gəlmədiyini soruşmurdu. Amma İsmayıl soruşmağını israrla tapşırırdı.

Gələn dəfə soruş, -hər dəfə özünə söz verirdi amma fikirləşirdi: - "Yox, yaxşısı soruşmayım!"

Totoy yaxınlıqda yaşayırdı.

Bir neçə gün əvvəl, gecə yarısı, aulda həyat öləndə, Səidə İsmayılın paltarlarını yumuşdu. Bu iş səhər dan sökülənə qədər davam etmiş, sonra da yuduğu paltarı ocaq qalayaraq qurutmağa məcbur olmuşdu. Həmin səhər erkən su gətirmək üçün evdən çıxanda özünü pis hiss etdi. Ürəyi bulandı və başı fırlanmağa başladı. "Bəlkə hamiləyəm? -qorxmuş, vedrəni əlindən salmışdı. -Adamlar nə deyəcək? -Elə orada özünü sakitləşdirirdi: -Yox, ola bilməz. Bu yuxusuz gecələrə görədir". Hamilə olma ehtimalını unutmağa çalışaraq İsmayıl haqqında düşündü. "Bu gün necədir görəsən? -öz-özündən soruşurdu, ürəyi həyəcanla döyünürdü. - Qış gəldi, tezliklə şaxta düşəcək, mağarada nə edəcək?"

Bəli, tam mənasıyla qış gəlmişdi. Dünən torpaq qara ikən, bu gün dağın ətəkləri belə qarla örtülmüşdü. Arx boyundakı söyüdlər donmuş, çılpaq gövdələrini külək tərpədirdi. Göy üzündə qara buludlar ağır-ağır axır, sanki yerə yaxınlaşırdı. Elə bil bütün kainat büzülmüş, kiçilmişdi. Qar yağmağa davam edir və külək qarı sovurub künclərə yığırdı. Aulda hər kəs yatırdı. Bu soyuqda erkəndən çölə çıxmaq istəmirdilər.

Səidə başını önə əyərək addımlayır və İsmayıla yun xalçanı necə aparacağını fikirləşirdi: "Onsuz bu soyuğa tab gətirə bilməzdi...." Qarın üstündə ayaq izlərini görüb qəfil fikrini dəyişdi. İzlər çaya gedirdi. "Yəqin bu Totoydur". - O güman etdi və birdən onu gördü. Ayağında böyük ölçülü çəkmə, əynində böyük paltarın içində çox kiçik görsənirdi. Yanaqları çökmüş, dodaqlarının kənarları qırışmışdı. Səidəni görən kimi vedrələri yerə qoyub dayandı və soyuqdan donmuş əllərini ovuşdururaq gözlədi.

-Yoxsa bütün gecəni yatmamısan? Gözlərin necə də kiçilib, üzün sapsarıdır! - qonşusu dedi.

-Yox, yox hər şey qaydasındadı, bir az başım ağrıyır. -Səidə cavab verdi və sonra yenə əlavə etdi: -Gecə yatmaqdan başqa nə edim? - Öz sözlərindən özü qorxdu, belindən soyuq tər axdığını hiss etdi. "Bəlkə Totoy gecə paltar yuyarkən bayırda onu görüb? İndi soruşacaq..."

-Doğrudur, bu gecə yatmamışam, oğlum çox ağlayırdı, -Bayaq söylədiyi sözləri unutdurmaq istədi.

Totoy başını tərpətdi və asta səslə əlavə etdi, - Sən də mənim kimi yalnızsan! Evdəki qocanın kölgədən fərqi yoxdur. Ocaq başında yatmaqdan başqa heç nə etməz. Yaxşı ki, nəvəsilə məşğul olur. Sənin valideynlərin də uzaqda yaşayır... Bax belə həyatda hər şey bir-birinə bağlıdır! - Totoy susdu, səmimi rəğbət hissilə Səidə ona nəzər saldı. O sərt baxışlı, qalın kirpikli qadın idi. Yalnız qadınların gözündə ifadə olunan, məyus, eyni zamanda incə və iztirablı baxışları var idi. Səidə çoxdandır ki, onu belə halda görmürdü. "Gəncliyində yəqin çox gözəl qız olub. Astanayın da anası kimi gözəl gözləri var idi", - Səidə fikirləşirdi.

Totoy dərindən nəfəs aldı və dedi:

"Məktub yoxdur deyə kədərlənirik... Nə edək, bizim taleyimiz belədir. Mən üç uşağımla qaldım, sən isə ərinlə yaşamağa vaxtın olmadı. Xoşbəxt yaşamaq vaxtı gələndə müharibə başladı, uşağın atasını belə görə bilmədi. Əlbəttə, kədərlidir... Heç nə olmaz, bu da keçər, hər şey gəlib keçər... Məktub yenə yoxdur!... Düşünəndə əllərim titrəyir... Bax, yenə qış gəldi amma mənim uşaqlarım acdır... Cəmi iki çuval qarğıdalı qalıb... Bu bizim üçün nədir ki? -Totoy ümidsizcəsinə əllərini yellədi, göz yaşlarını silərək vedrələrdən yapışdı. Səidə çaşqın halda ona baxdı. Həm çox narahat olmuş, həm də sevinmişdi. Totoy şübhələnməmişdi. Totoya heç nə deyə bilməmişdi. Amma bu balaca qadının həssaslığı, anlayışı, cəsarəti və çarəsizliyi Səidəyə toxunurdu. Talelərinin bir-birinə bənzədiyini də demişdi. Belə olduqda Səidə də üsyan etməməliydi... Belə ziddiyyətli vəziyyətlərin öhdəsindən gələcək halda deyildi. Özünə haqq qazandıraraq düşünürdü: "Nə edim?" Hər kəsin öz taleyi var. Alnına nə yazılıbsa o da olacaq. Əgər Totoyun uşaqlarının taleyi yaxşıdırsa, ataları qayıdacaq..."

Qonşusu Totoyun əri Baydalı müharibəyə getməzdən əvvəl aulda suçu işləyirdi. Axşam işdən gələndə onu görmək olardı. Qoca və güclü addımları ilə tarlada arx sularını yönləndirərdi.

Axşam olmasına baxmayaraq, yonca sahələrinə suyu yönəldər, parlaq üzü uzaqdan aydın görünərdi.

"Suyu idarə etməyi bacarır, onun əlləri qızıldandı!" - aulda onun haqqında deyirdilər. Qadınlar əllərilə ətəklərini qaldırıb axan arxdan qorxa-qorxa qarşı tərəfə keçərkən o gülməyini saxlaya bilmirdi:

Nədi, arx sularına qarışıb getməkdən qorxursunuz? Qorxmayın axın sizi mənim düz qucağıma gətirər, mən də sizi buraxmaram!

- Lənətə gələsən, arxların yuyulsun! Özün də içində boğulasan! - qadınlar qışqıraraq ona cavab verirdilər.

O isə yenə gülməyinə davam edərdi.

Onun iri və güclü bədəni ilə qaranlıq çökənə qədər, haqsızlıqla savaşan bir işıq kimi kəsəkləri əzdiyini görərdilər. Tarlaları aşaraq gözdən itirdi.

Əvvəllər Səidə onların evlərinə gedərək belə bir mənzərə ilə qarşılaşırdı: Totoy dodaqlarını sıxıb qazanın dibini qazıyarkən, əri Baydalı bir tərəfdən uşaqlarına oyuncaq düzəldər, digər tərəfdən onları yatızdırmağa çalışardı:

"Nahaq yerə şikayət edirsən baybiçə. Başqalarından pis yaşamırıq... Hər ailədə üç oğul var? Sən onları dünyaya gətirmisən, mənə başqa var-dövlət lazım deyil... Allah necə sağlam uşaqlar verib bizə!"

Cəbhədən Baydalı tez-tez məktub yazırdı... Payızda məktublar kəsildi. İsmayıldan da məktub gəlmirdi. Əvvəl dediyimiz kimi, poçtalyon Qurban onların evlərinin yanından ötəndə özünü günahkar kimi hiss edər, atını mahmızlayıb tez ordan uzaqlaşmağa çalışardı. Amma kənd sovetinin sədri Mirzəqul tez-tez Totoy və Səidəyə baş çəkərdi. Hər dəfə Səidə bərk qorxurdu. Bəlkə Mirzəqul şübhələnib, İsmayılı izləmək istəyir? Amma hələlik hərəkətlərində heç nə sezilmirdi. Həm də Mirzəqul hardan biləcək? Hələ İsmayılın qaçdığını aulda heç kim bilmirdi. İsmayıl çox tədbirli idi.

- Səidə kiməsə güvəniləcək zaman deyil, heç kimə bir söz belə, demə! - hər dəfə xəbərdarlıq edərdi. - Hətta atam məzardan qalxıb gəlsə belə ona da inanma! Eşidirsən?

Mirzəqul kənddə qalanda bir bəhanə ilə onlara baş çəkərdi. Orduya getməzdən əvvəl o gənc igid idi. Tebeteyini alnına qədər endirər, yarışları çox sevərdi. Qopuzu da hər zaman əlində olardı. Şeirlərini özü yazıb, özü bəstələyərdi. Aulun ən yaxşı ozanı idi. Müharibədən bir qolunu itirərək qayıtdı. İndi onu tanımaq olmurdu, çox dəyişmişdi. Xarakteri də dəyişmişdi, əsəbi, inadcıl olmuşdu. Fırtınada budaqları qopmuş, budaqları qırılmış ağaca bənzəyirdi. Sol çiyni çökmüş, yara izləri ilə dolu boynu incəlmişdi. Üzündə dərin qırışlar əmələ gəlmiş, baxışları dəyişmişdi. İndi daha çox müharibədə gördüklərindən oxuyardı. Səsi bəzən zəif və soyuq, bəzən qəzəblə dolardı. Mahnı oxuyarkən gözləri bir əfsanə qəhrəmanının gözləri kimi parıldayar, qopuzunun tellərinə tək əli ilə toxunardı.

Adətən Mirzəqul Totoyun qapısına gələrdi.

- Hey Totoy, hardasınız? Sağsınız? - Sonra atın üzərindən Səidənin bağçasına baxaraq onu çağırırdı: - Səidə uşaq yaxşıdır? Mənə gizlətdiyin tütündən bir siqaret düzəlt qonşuya gəl... İşimiz var... Öz işini sonra görərsən...

Mirzəqul onlardan cəbhədən məktub gəlib-gəlmədiyini heç vaxt soruşmazdı. Aula gələn məktublara özü baxdığı üçün hər şeyi bilirdi. Ona görə də onların yaralarına toxunmaq istəmirdi. Onunla hər görüşündə Səidənin belindən soyuq tərlər axar, İsmayılla bağlı heç bir sual soruşmamasından şübhələnərdi. Ona şübhəli gəlirdi, görəsən niyə o İsmayıldan məktub gəlib-gəlməməsi barədə soruşmur. Deməli nəsə bilir. Deməli bu elə-belə deyil....

Ötən yaz topladıqları tütündən ona bir siqaret bükər, yandırar və qorxusunu gizlədərək qonşu Totoyun evinə gedərdi. Mirzəqul onu görəndə atından enər, siqaret çəkə-çəkə ondan-bundan söhbət açardı.

-Yaxşı tütündür Səidə! - onu bir dəfə tərifləmişdi. Bundan bir qutu İsmayıla da göndər, qoy çəksin. Bizim Talası yadına salsın. Bizim tütünümüzdən heç yerdə yoxdur.

- Göndərərəm, - Səidə güclə cavab verərdi. Yenə nəsə demək lazım idi, amma ağlına heç nə gəlmirdi. Sifəti daha da qızarardı. O bilərəkdən öskürərək: - Fu, insanın boğazını qıcıqlandırır, nə zövq alırsınız ondan?..

O anda yerində söylənilmiş cavab olsa da, Səidəni bütün gecə düşündürmüşdü. Özünü ələ verməmişdi? "Allah qorusun. Olmaz, olmaz qızarmamalı və başımı dik tutmalıyam! Görəsən şübhələnmədi? Özüm günahkaram, - özünü ittiham edərdi. Bəs niyə paket göndərməyimdən danışdı? Söz xatirinə yoxsa məqsədli şəkildə?

Başqa bir gün Mirzəqul Totoyun bağçasında, arx boyundakı ağaclara baxdı və onu danladı:

- Baydalı payızda bunları budayar, təmizləyərdi... Siz unutmusunuz. Budamasanız böyüməzlər. Həm də artıqlarından da istifadə etmək olar...

Totoy Mirzəqulun üzünə güclə baxdı və dərindən nəfəs aldı:

- Əgər böyüməyəcəklərsə, böyüməsinlər. Ağlayası deyiləm! Ağac insana dayaq verirmi? Evin kişisi gedəndən sonra heç nəyə həvəsim qalmayıb. Kolxozda işləyirəm, uşaqlara baxıram... Bax, iki qonşu yaşayırıq. Səs-səmir yoxdu, bir xəbər belə yoxdu bizimkilərdən, Allah bilir sağdılar və ya ölüblər! Sən isə ağaclardan danışırsan...

Mirzəqulun həqiqəti öyrənəcəyindən Səidə qorxurdu. "Sən özünü onunla müqayisə etmə. - Mirzəqul deyirdi. Onun İsmayılı uzun müddətdir ki, qaçaqdır. Buralarda gizlənir!" - Həmin dəqiqələrdə ağlına gəlirdi. Amma Mirzəqul başqa sözlər deyirdi.

- Bilirsən Totoy bu ağacların təkcə özləri deyil, kölgələri də lazım olacaq, - sakit səslə demiş, birdən əsəbiləşərək nə zamandan demək istədiklərini demişdi: - Bu ağacları budayın! Poçtda biraz gecikmə olanda aləmi ayağa qaldırırsınız! Ağlamaq yerinə damdakı otları yığ! Yarısı yerə düşüb, yarısı da yaza qədər çürüyəcək, inəyə verməyə ot tapa bilməyəcəksən. Uşaqlar südsüz qalsın? Tək edə bilmirsənsə, qapı qonşunu köməyə çağır. İkiniz bir kişinin gördüyünü görərsiniz. Rus qadınları kişilər kimi cəbhələrə gedir, kişilər kimi silah atırlar. Bunu gözlərimlə görmüşəm. Siz isə evdə oturub məktub gəlmədiyinə görə ağlayırsınız!"

Totoy bir söz demədi, dişlərini sıxmadı. Onun əvəzinə Səidə danışdı:

-Yaxşı, onları edərik. Elə bu gün ağacları budayar, otları toplayarıq.

*Tərcümə edən:*
**Mehman HƏSƏN**
*AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun əməkdaşı*

